2017-ci ilin yanvar-avqust aylarında ev təsərrüfatlarında sənaye məhsulu istehsalı, habelə hüquqi şəxs yaratmadan fiziki şəxs kimi sənaye sahəsində fəaliyyət göstərənlərin işi də nəzərə alınmaqla 708256 min manatlıq sənaye məhsulu istehsal edilmiş və xidmətlər göstərilmişdir ki, bu da 2016-cı ilin müvafiq dövrü ilə müqayisədə 1,4 faiz çoxdur. Sənaye istehsalının 95,9 faizi malların, 4,1 faizi isə xidmətlərin payına düşmüşdür.

Sənayenin dövlət sektorunda 31866,4 min manatlıq, qeyri-dövlət sektorunda 676389,6 min manatlıq məhsul istehsal edilmişdir.

2017-ci ilin yanvar-iyul aylarında muxtar respublikanın sənaye müəssisələrində 16072 nəfər işçi çalışmışdır ki, bu da 2016-cı ilin müvafiq dövrü ilə müqayisədə 1,2 faiz çoxdur. Sənaye sahəsində bir işçiyə hesablanmış orta aylıq nominal əməkhaqqı 2016-cı ilin müvafiq dövrünə nisbətən 1,5 faiz artaraq 370,3 manat olmuşdur.